**Ağa Ramazan**

**Ramazanov Ağaəli Məmməd oğlu 1964-cü il iyun ayının 30-unda Şəki şəhərində anadan olmuşdur. Şəkidə orta təhsilini başa vurduqdan sonra 1981-86-cı illərdə Azərbaycan Neft Akademiyasında təhsil almış və 1986-89-cu illərdə təyinatla Qırğızıstana göndərilib. Həmin respublikanın paytaxtı Frunze- indiki Bişkek şəhərində maşınqayırma zavodunda müxtəlif vəzifələrdə çalışmış və sonra vətənə qayıdarak Şəkidə Yerli Sənaye Kombinatında mühəndis işləmişdir. 1992-ci ildən kommersiya ilə məşğuldur.**



**Ağa Ramazan yaradıcılığa orta məktəb illərindən başlamışdır. İndiyə qədər Ağa Ramazanın dörd kitabı oxuculara təqdim edilmişdir. Onun şeirləri müntəzəm olaraq respublika və rayon qəzetlərində cap edilir. Ağa Ramazan səmimi, həyati şeirləri ilə öz oxucuları tərəfindən sevilir. O, 2010-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Əzəmətli Böyük Oafqaz dağlarını qarış- qarış gəzə- gəzə təbiət vurğunu olan Ağa Ramazana dünyaya gəlişinin 55 illiyi münasibəti ilə təbriklərimizi çatdırır və onun son şeirlərini oxuculara təqdim edirik. Salam-əleyk, Alp Ağa şeiri sevimli oğluna həsr edilib.**

### Salam-əleyk, Alp Aga!

Günü 11-ci gün,
O gün sanki toy-düyün.
Ürək sən də bir öyün!
Fərəhlənib dön dağa,
Salam-əleyk, Alp Ağa!

Ayı 11-ci ay,
Allahım, ən gözəl pay!
Oynayıram a bay-bay!
Keflənmişəm ay qağa,
Salam-əleyk, Alp Ağa!

İli 11-ci il,
Ötürsən sən də dil-dil.
Qabaqdadır çox şey bil!
"Tıstaba" yox, tısbağa.
Salam-əleyk, Alp Ağa!

Yığmısan 11-ləri,
Görəsən ərənləri.
Görmə mən görənləri.
Çatasan gözəl çağa,
Salam-əleyk, Alp Ağa!

### Fəsillər

Bu gün yazdı,
Keyfim sazdı.
Nə olsun ki,
Bu dünyada,
Kimə çoxdu,
Kimə azdı.
Dünya özü,
Əzəl gündən,
Natarazdı.

Sonra yaydı,
İsti vaydı.
Qapılar da,
Taybataydı.
Bu qapıdan
Keçənlərə,
Tanrı bilir
Hansı saydı.

Bu payızdı,
Sarı qızdı.
Yarpaqlar da
Çox halsızdı.
Gah istidi,
Gah da soyuq,
Qəlbim ona,
İnamsızdı.

Sonu qışdı,
Hər günümüz,
Ehtiyaca
Çağırışdı.
Qarı da az,
Keyfim nasaz.
Keçən ömür
Aldanışdı.

### Silsilə şeirlər

**(qardaşım Mirzəliyə)**

### Tez vurdun başa

Sənin hər baxışın nur, işıq idi
İndi bu zülmətə alışmaq olmur
Axşamki yuxular, qarışıq idi,
İnsana boş əllə çalışmaq olmur
Sənin yoxluğunla barışmaq olmur.

Yaxşılıq ömrünə yaraşıq idi,
Sən axı hamıdan yaxşıydın, yaxşı!
Məqsədin, məramın barışıq idi,
Tapdın hardan belə acı naxışı?
Tutdu yaman səni iblis qarğışı!

Düzü hamı sənə çox aşiq idi,
Yaxşını həyatda kim istəməz ki?
Duruşun,baxışın tamam şux idi,
Tanrı öz bəndəsin heç pisləməz ki...
Bilmıdik Əzrayıl tez izləməz ki?

Ucalıq gətirdin qohum-qaradaşa,
Xeyirxah işlərin çıxardı başa
İndi mən bu başı, vurummu daşa?
Gözlərdən axan yaş döndükcə selə,
Ölümün bir anda yayıldı elə.

Əfsuski, ömrünü tez vurdun başa,
Ömrün çoxu kimi vəfasız çıxdı
Qorxuram bu dərdən ağlımda çaşa,
Etdiyin etibar gümanı yıxdı,
Əzəldən bu dünya, zatı qırıqdı!

Sənin hər baxışın nur,işıq idi,
Yaxşılıq ömrünə yaraşıq idi,
Düzü hamı sənə çox aşiq idi,
Ucalıq gətirdin qohum-qardaşa,
Əfsuski ömrünü tez vurdun başa.

Rəsminə baxmaq ağır
Səndən bir az aralı,
Dünya yox olur itir
Artıq qəlbim yaralı,
Içində dərdlər bitir

Itib-bitən qardaşım!
Gör özünə nə etdin...
And yerim,məhəng daşım,
Yaman narazı getdin
Bu qəbirin,başdaşın,

### Yolum məzarlıq yolu

Yolum məzarlıq yolu,
Hər yan qəbirlə dolu
Fanarım işıq salır,
Seçirəm sağı-solu

Yolum məzarlıq yolu,
Dərdimin boldan bolu
Görürəm şəklindəki,
O biləyi, o qolu

Necədə sağlam idin,
O əzələ, o güclə
Ölüm nə tez dayandı,
Boğazında ülgüclə

Sən dünyaya gələndən,
Səni talan etdilər
Bütün həqiqətini,
Tamam yalan etdilər
Puç olduqca diləklər,
Yıxdı səni kələklər
Aldı səni əlimdən,
Şeytan xislət mələklər

Mən çoxdandı özümlə,
Olammıram, qardaşım!
Yanında bunnan artıq,
Qalammıram, qardaşım!

Səndən ötrü darıxıb,
Qayıtmağım bilki var
Hamı səndən öyrənsin,
Nədir həyat, düz ilqar.

Yolum məzarlıq yolu,
Hər yan məzarla dolu
Burda MİRZƏLİ yatır,
Ürəyidə dopdolu.

### Qəlbinə, xətrinə dəyməsəm olmaz!

**(Xəzangül xanıma)**

Sən məni o qədər incitmisənki,
Mən sənin xətrinə dəyəsi oldum.
Yumşaldıb o qədər incəltmisənki,
Bir azda qəddimi əyəsi oldum,
Bu qəddi,qaməti əyməsən olmaz?
Sən mənim xətrimə dəyməsən olmaz?

Nə deyim sözlərim xoş gəlsin sənə,
Həmişə yaxşılar tuş gəlsin sənə,
Yediyin,içdiyin nuş gəlsin sənə,
Bu sevda yolunda,cuş gəlsin sənə,
Demirsən sən məni,öyməsən olmaz?
Qəlbimə,xətrimə dəyməsən olmaz?

Könlümün qismətə etirazı çox
Məəttəl qalmağın bir mənası yox
Mən sevən gözləri görməmişəm tox
Sevdalı baxışlar,həm iti,həm ox
Eh,dikib gözünü,döyməsən olmaz?
Qəlbimə,xətrimə dəyməsən olmaz?

Dünənin səhvləri,bu günə xəta,
Sən mənə bəxşişsən,Tanridan əta,
Bir əldə gül-çiçək,bir əldə buta,
Gəl elə etmə ki,hər bir şey bata
Bu işi bağlayıb,düyməsəm olmaz!
Qəlbinə,xətrinə dəyməsəm olmaz!

### Muğayat ol!

Danışdıqca çox bərbaddan,
Umma ağıl sən arvaddan.
Düşsə də söz bil urvatdan,
Sözündən muğayat ol!
Günün ağdı, ya qaradı,
Əlac, çarə pul-paradı.
Getdiyin yol bil haradı,
Gözündən muğayat ol!

Bu əyrilər düzdədisə,
Sayğacımız yüzdədisə,
Abır-həya üzdədisə,
Üzündən muğayat ol!

Çəkildikcə hər bir nazın,
Qədrini bil çoxun, azın.
Hər gələndə bahar, yazın,
İzindən muğayat ol!

Yeyilənlər dadda qalır,
Yeyilməyən yadda qalır.
Hərə bir cür yadda qalır,
Özündən muğayat ol!

### Şalvar qara, köynəyi ağ

Bu dünyanın çoxdu rəngi,
Yarımda var ən qəşəngi
Xoşdu qəlbə hər ahəngi,
Gah yaxınsan, gah da uzaq,
Şalvar qara, köynəyi ağ.

Sevməyən kəs,bil kəs deyil,
Bu il mənə,heç nəhs deyil
Incitməyin, de, bəs deyil,
Çəkdirmə gəl, sən bunca dağ,
Şalvar qara, köynəyi ağ.

Gözlərində, varsa gözüm,
Tez ol, qayıt, çoxdu sözüm
Elə bilmə, yoxdu dözüm
Dözən ürək, partlayacaq?
Şalvar qara, köynəyi ağ.

Fikrindəki, o aldanış,
Salır səni, bir az yalnış
Bunnan artıq, olmaz naxış,
Qoyma qapın bağlanacaq,
Şalvar qara, köynəyi ağ.

Ay qız danış, mənnən barış,
Edim dua, edim alxış,
Tutar səni, etsəm qarğış,
Getsən dünyam dağılacaq,
Şalvar qara, köynəyi ağ.

Bilirım ki, saf incisən,
Sən Ağanın sevincisən
Nədən küskün, sən inciksən?
Bəs məni kim saxlayacaq?
Şalvar qara, köynəyi ağ.
Don yas tutub ağlayacaq,
Şalvar qara, köynəyi ağ.